Şağan Olimpiya İdman Kompleksində keçirilən yarışda 20 komanda mübarizə aparıb.

Birincilikdə "Təhsil" Respublika İdman Mərkəzinin (RİM) yığma komandası da iştirak edib. Mərkəzin yetirmələri 1 qızıl, 2 gümüş və 4 bürünc medal qazanaraq komanda hesabında IV yerə layiq görülüb. Fərdi yarışlarda da RİM-in yetirmələri uğurlu nəticələr göstəriblər. 80 kq çəki dərəcəsində Məhəmməd Abdullayev fəxri kürsünün birinci pilləsinə, 48 kq çəki dərəcəsində Elvin Səfərov və 57 kq çəki dərəcəsində İsmayıl Səfərli ikinci pilləsinə, 70 kq çəki dərəcəsində Elvin Atakişiyev, 75 kq çəki dərəcəsində Nurlan Əlizadə, 80 kq çəki dərəcəsində Əli Həşimli və 80 kq-dan yuxarı çəki dərəcəsində İlkin İsmayılov üçüncü pilləsinə yüksəliblər.